**İLHAMİ CƏFƏRSOY***

# TÜRKİYƏDƏ ŞUŞA ŞƏHƏRİ

**XÜLASƏ**

Şuşa yalnız Azərbaycanda bir şəhərin adı deyildir. Qədim Ön Asiyanın elitar nəsillərindən birinin adıdır.

İlk Şuşa şəhəri Zaqros dağlarının cənub-şərqində Elamda salınmışdır. Həmin şəhər qədim mənbələrdə Susa, Suza adlandırılır. Suz, Suziana şəhərin yunan mətnlərindəki adıdır.

Şuşa məbədinin kahinləri in-Şuşinak titulu daşıyırdılar. Şuşa eradan öncə XVIII əsrdə böyüklüyünə görə Elamın altıncı şəhəri idi. Paytaxt olandan sonra böyüdü. Eradan öncə şəhərdə 45 min əhali yaşayırdı. Bu, o zaman üçün meqapolis idi.

Eradan öncə VI əsrdə əhəmənilər Elam dövlətinin varlığının son qoydular. Əhalinin bir hissəsi dağlara çəkildi. Sığındıqları qalalarda Xəzinədarlar dövlətini yaratdılar. Həmin dövlət Makedoniyalı İsgəndərin gəlişinə qədər qalırdı.

Ən döyüşkən nəsillər isə Qafqaz dağlarının ətəyinə köçdülər. Albaniya ilə İveriya arasında Şuşa ve Bərdə şəhərini saldılar. Övliya Çələbi (XVII əsr) həmin şəhərlərin xarabalarını görmüşdü.

Şuşa nəslinin patriarxları Ər Şuşa titulu daşıyırdılar. I Ər Şuşa eranın III əsrində, II Ər Şuşa V əsrində İveriya xalqları üzərində hökmran olmuşdur.

II Ər Şuşa xristian oldu. Mesrop Maştosu yanına çağırıb Şuşa əlifbasını tərtib etdirdi. Gürcülər iddia edirdilər ki, həmin əlifba ilk gürcü əlifbasıdır. Əslində isə Şuşa əlifbasıdır. O zaman indiki gürcülərin əcdadı olan İudeya mənsəbli baqrationlar hələ Qafqaza gəlməmişdilər.

Şuşalılar 1117-ci ildə baqrationlarla vuruşa-vuruşa Batum şəhərinin şimal-qərbinə köçdülər. Orada Şuşaeti, yəni Şuşa yurdu qalasını tikib ora sığındılar.

Akademik Marr XX əsrin əvvəllərində indi Şavşat adlanan mahalda elmi səfərdə oldu. Yazdi ki, Şavşeti qocaları nə zamansa Gürcüstandan köçüb gəldiklərindən xatırlayırlar. Ancaq gürcü dilini bilmirlər. Türk dillərinə bənzəyən bir dildə danışırlar.

Təklif edirəm ki, Şavşat şəhərinin tarixi Şuşa adı bərpa olunsun. Azərbaycanın, Türkiyənin, İtaliyanın Şuşa şəhərləri qardaş şəhərlər adlandırılsın. Bu ideya baş tutarsa Turan birliyi öz coğrafiyasını daha da böyüdər, daha da güclənər, daha da yenilməz olar.

**Açar sözlər:** *Şuşa, Suziana, Baqrationlar, Elam dövləti, İveriya*

Şuşa yalnız bir şəhərin, Azərbaycanın mədəniyyət paytaxtının adı deyildir. Qədim Ön Asiyanın prototürk nəsillərindən birinin adıdır.

Şuşalılar eradan öncə IV minilliyin sonlarında Zaqros dağlarının cənub-şərqində Şumerin qonşuluğunda strateji bir məkanda yurd salmışdılar. Onların ölkəsi şimal-şərqdən və şimal-qərbdən dağlarla əhatə olunmuşdu. Cənubdan indiki Fars körfəzlərinə dirənirdi [Рагозина: 1902, s.495, 497, 499; Рагозина: 1903, s.298; Юсифов: 1968, s.29; Янковский: 1968, s.28, 32; Оппенхейм: 1990, s.42].

Yunan tarixçiləri Şuşa şəhərini Suz, Elamın Şuşa vilayətini *Suziana* adlandırırlar. Son yüz ildə nəşr olunan ensiklopediyalarda Şuşa adına təsadüf etmək mümkün deyil.

* AMEA Nəsimi ad. Dilçilik İnstitutu, filologiya elmləri doktoru, *cfrsoy@mail.ru*

İndikilərdən fərqli olaraq köhnə nəsil tarixçilər təsdiq edirlər ki, o xalqın adı Suz, ölkənin adı Suzianan yox, Şuşa olmuşdur [Рагозина: 1903, s.311; Розалия Шор: 1931, s.229; Тураев: 1913, s.79].

1843-cü ildə Peterburqda nəşr olunan bir coğrafi lüğətdə yazılıb ki, orta əsrlərdə Kuzistan və Xuzistan adlanan ölkənin adı qədim mənbələrdə *Suza* formasındadır [Всеобщий географический и статистический словарь: 1843, s.527].

Şuşa eradan öncə XVIII əsrdə böyüklüyünə görə Elamın altıncı şəhəri idi. Paytaxt olandan sonra sürətlə böyüməyə başladı. E.ö. XV əsrdə şəhərin əhalisi 45 min nəfərə çatmışdı. Bu, o zaman üçün meqapolis idi.

Şəhərə 55 km-dən su kanalı çəkilmişdir [Хинц: 1987, s.7, 12, 40-41]. Bu, o zaman dünyanın ən uzun su kanalı idi.

Şuşa xəzinədarları zəmi, bağ sahiblərinə kredit verəndə borc olanların imzalarını barmağını mürəkkəbə batırıb kağıza basdırmaqla təsdiq etdirirdilər. Onlar hələ 3 min il bundan qabaq bilirdilər ki, insanların barmaq izləri bir-birinə bənzəmir.

Xilafət dövrününün tarixçilərindən biri Əbu Osman Cahiz əl-Bəsri Xosrov Pərvizin zamanında yaşamış Şəfran ət-Tirmizidən belə bir sitat gətirir: - Bizx onların Şuşa bağlarında nə məqsədlə zeytun ağacları əkdiklərini bilirik [Cahiz: 2001, s.55, 75].

İn Şuşinak məbədinin kahinləri zeytun ağaclarını yalnız yağ hazırlatmaq üçün əkdirmirdilər. Zeytun ağacının meyvəli budağındakı yarpaqları sayaraq fala baxırdılar, cadugərlik edirdilər [Никита Эмин: 1864, s.58].

İn Şuşinak göylərin himayəsi altında olan Şuşa patriarxı, Şuşa məbədinin kahini deməkdir [Мещанинов: 7614, s.6-9]. İn Şuşinak məbədi kahinlərinin bir nəsli *Baq Şuşa* titulu daşıyırdı. Bu barədə Kül təpədən tapılan e.ö. II minilliyin ortalarında aid mixiyazılı mətndə xəbər verilir [Янковский: 1968, s.28-32].

Baq tituluna bundan min il sonra *maq* formasında Midiya mətnlərində rast gəlirik.

Ən qədim şuşalılar hansı dildə danışırdılar? Sovet dönəmində yazılan və yazdırılan əsərlərə inansaq, naməlum dillərdə və ləhcələrdə danışırmışlar.

Ən qədim şuşalılar, samilərin və arilərin gəlişinə qədərki şuşalılar şumerlərlə eyni dildə danışırdılar.

Fransız arxeoloqları 1897-ci ildə Elamın Şuşa şəhərindən yazılı lövhə tapıldılar. Mətnin dili Şumer dili ilə eynidir [İslam Sadıq: 2008, s.59]. Şumer dili kimi Şuşa dili sonralar smi dillərinin təsirinə uğramışdır.

Bisutun qayasının Ancaq dilində olan mətni qrammatik quruluşu xeyli dəyişilsə də, o mətndə çoxlu Şumer və Şuşa sözləri qalmışdıtr. Z.A.Raqozinaya görə Bisütün qayasının üçüncü mətninin dili: 1. iltisaqidir, 2. Ural-Altay və ya Turan tiplidir, 3. qeyri-aridir, 4. qeyri-samidir, 5. Şumer və Akkad dillərinə bənzəyir [Рагозина: 1903, s.5, 311, 318, 356].

Şuşa və Türk dillərinin qohumluğunu ilk olaraq gündəmə gətirən Alman alimi Fridrix Vaysbax olmuşdur [Wiessbach: 1890, s.11-12]. Akademik Marr Fridrix

Vaysbaxa istinadən yazır ki, Elamın Suz əhalisi əhəmənilərin və samilərin gəlişindən qabaq *Şumer* dilində danışırdı [Марр: 1914, s.4].

Şumer dilində allaha *dinqir,* Şuşa dilində *tanri* deyilir. Şuşanın zadəgan nəsillərinin bir neçəsi *Kuk Tanri* titulu daşıyırdılar [Хинц: 1987, s.90; Юсифов 1968, s.63]. Kuk göy və tanrı türk teonimləridir.

Elamın Şuşa, Bərdə, Ancaq, Baqravan dillərində çoxlu prototürk leksikasının arxaik nümunələri vardır. Onların mənasını anlamaq üçün lüğətlərə baxmağ lazım deyil.

*Ama* - ana, qəbilənin ilk anas və ilahə ana [Хинц: 1987, s.91, 143; Юсифов: 1968, s.69].

*E* – Şumer və Şuşa dillərində ev [Юсифов: 1968, s.37, 390].

*Hemen* – həmin [Марр: 1914, s.26].

*Gizza* – kəs [Марр: 1914, s.31].

*Ma* – 1. Mənimsəmək, 2. Feilin inkar şəkilçisi [Юсифов: 1968, s.224; Марр: 1914, s.31, 43],

*-lar* - çoxluq və etnik mənsubluq şəkilçisi [Юсифов: 1968, s.70; Хинц: 1987, s.181].

*-lu* – adlanır sonunda gələn mənsubluq şəkilçisi [Юсифов: 1968, s.85, 157, 184, 390].

*Ata* – 1. ata, 2. qəbilənin atası, patriarx [Юсифов: 1968, s.64]. Eradan əvvəl XVIII əsrə, kaspilər Elamı tutana qədər Suz çarları ata titulu daşıyırdılar.

*Atta Meta* – Suz zadəganı. Sasani şahı Daraya qarşı ilk üsyan başçılarından biri. Onun e.ö. 519-cu ildə başladığı üsyan farsların əcdadlarının Şuşadan qovulması ilə nəticələndi [Хинц: 1987, s.159].

Xatay, Şuşa mətnlərində bəzən ata sözü at-ta hecaları ilə yazılır. Akademik Marr yazır ki, at-ta Suz dilində ata deməkdir [Марр: 1914, s.63].

İqrar Əliyev yazır ki, Midiya maqlarının dilindəki atta Elam mənşəli sözdür. Ancaq onun Türk sözü olması barədə susur [Играр Алив: 1954, s.180].

*Tata* – Avran nəslindən Elam çarı. E.ö. III minilliyin ortalarında hakimiyyətdə olmuşdur [Хинц: 1987, s.178].

Bundan başqa Suz vilayətinin *Tata* titullu hakimi olmuşdur. E.ö. 1570-ci ildə yazılmış bir lövhədə adı çəkilir [Хинц: 1987, s.100].

Tata sözü dədə formasında bu gün Azərbaycan dilində işlənir. Dədəmiz Qor-qudun kitabında dədə ananın atasına deyilir.

Zir – Ön Asiyanın iltisaqi dillərində yer, həyət [Камменхубер: 1980, s.203]. Qədim Bulqar və Çuvaş dillərində yerə *ser, zer* deyilir.

Miri Zir – Suz yazılarında yer ilahəsi. İ.M.Dyakonova görə ilahə Miri Zir Suza Kaspi panteonundan gəlmişdir [Дьяканов: 1954, s.32].

Kas totemi çöl qazı olan etnos deməkdir. -pi, -be Elam şəkilçisidir.

*Dəb* – taxılı biçib xırmanda döymək [Марр: 1914, s.38]. Suz dilindəki dəb Türk dillərindəki təpmək feilinin köküdür.

*Yelelu* – Suz təqvimində biçin ayı [Храновский: 2010, s.142]. Zəmiləri biçilik, sünbüllər xırmanda təpələr kimi sıra ilə yığılırdı. İnsanlar əl-ələ tutub arpa, buğda təpələri ətrafında rəqs edir, mahnı oxuyurdular.

Suzda və Ön Asiyanın digər iltisaqi dillərinin çoxunda o mərasimə yelelu, yalalu deyilir. Suzun xırman mərasim rəqsinin adı Azərbaycan dilində yallı formasında qalmışdır.

*Tupi* – Suz dilində, yəni qədim Şuşa dilində katib, yazı yazan [Иванов: 1980, s.144]. O zamankı yazılar çəkicə bənzər aləti daş lövhələrə vurmaqla, tuppuldatmaqla yazılırdı.

*Del* – Bisütun qayasının Elam mətnində ağac [Марр: 1914, s.56]. Bir Kərkük mahnısında ağacın budağına *dal* deyilir.

Almanın alına bax,
Əyilmiş dalına bax.

*E kel zeri* - əkin yeri, zəmi [Юсифов: 1968, s.369].

Zer eklu - əkilmiş, toxum səpilmiş yer, tarla [Юсифов: 1968, s.213, 219, 374].

*Zer su* – sulanan yer, bostan [Юсифов: 1968, s.219].

*Zu* – yeri şumlamaq [Марр: 1914, s.222, 224]. Zu şum sözünün kökүdür.

*Aqe* – Fridrix Vaysbaxın oxunuşunda suyun axması [Марр: 1914, s.226].

*Tu* – günəşin batdığı yer, *Kun,* yəni günəşin çıxdığı yerin antonimi [Марр: 1914, s.228].

Tu türk dillərindəki tun, yəni gecə, ku kun gün, günəş sözlərinin kökүdür.

Bu gün Azərbaycan dilində günəşin çıxdığı yerə ərəbcə şərq, batdığı yerə qərb deyirik. Bəlkə qədim Şuşa Bərdə xalqları kimi tün, kün deyək? Axı birinə qəzəblənəndə deyirik ki, a tunbətünün oğlu!

*Pan* – Fridrix Vaysbaxın oxunuşunda söz [Марр: 1914, s.40]. Dədəmiz Qorqudun kitabında: Saqqalı uzun tat əri banlayanda. Yaxud xoruz banlayanda.

*Ti* – dedi, *tirişti* adı verdi [Марр: 1914, s.32]. Ti dindi, dilləndi sözlərinin kökүdür.

Arxaik Şuşa dilində olan sözlərin hamısını sadalamağa ehtiyac yoxdur. Bunlar hamısı Alman mətnşünas alimi Fridrix Vaysbaxın 1890-cı və 1911-ci ildə Leypsiq şəhərində nəşr olunan kitablarında verilmişdir [Wiessbach: 1890, s.3-94; Wiessbach: 1911.s.3-241].

Fridrix Vaysbax eşidəndə ki, hardasa şumerlə Şuşa yaxınlığında Alman adlı xalq var imiş, arxeoloqların arxasınca Suza gəldi. Üç dildə yazılmış Əhəməni dövrünün qaya mətnini tədqiq etdi.

Əhəmənilər eradan əvvəl 579-cu ildə Elam dövlətinin varlığına son qoydular [Историография истории Древного Востока: 2002, s.17]. Şuşa şəhərini özlərinə mərkəz seçdilər. Bizim əlifbamızı, mədəni abidələrimizi mənimsədilər [Юсифов: 1968, s.35; Историография истории Древного Востока: 2002, s.17, 29].

Şuşa, Bərdə, Baqravan nəsilləri döyüşə-döyüşə iki yerə böləndülər. Elamda qalanlar dağlarda Xəzinədarlar dövlətini yaratdılar. Qafqaza köçənlər Albaniya ilə İveriya arasında Şuşa, Bərdə qala şəhərlərini saldılar. Burada güclənərək bölgənin hakim xalqına çevrildilər [Егише: 1971, s.10; Albaniya tarixi: 1993, s.33].

Elamdan Qafqaza köçən şuşalılardan *I Ər Şuşa* III əsrin, *II Ər Şuşa* V əsrin ortalarında İveriya üzərində hökmran oldu [Бердзениливили 1958.s.250].

Şuşa patriarxları yalnız cəsur sərkərdələr deyildilər, çoxillik idarəçilik təfəkkürünə malik olan uzaqgörən siyasətçi idilər. Onlar III əsrin əvvəllərində sasanilərlə əhəmənilərin döyüşləri başlayanda sasanilərin tərəfini saxladılar. Nəticədə Bərdə paytaxt olmaqla Aran hakimi oldular [Бердзениливили: 1958, s.250].



*Türkiyənin şərqindəki Şuşaeti qalası. Şuşa və İver dillərindəki –eti, -eli şəkilçiləri Akademik Marra görə, Suz dilindən gəlmədir.Gürcü tarixçiləri ilkin mətnləri saxtalaşdıraraq Şuşa şəhərinin və mahalının adını əvvəlcə Şuşeti, sonra Şavşeti Alban, adlandırdılar.*

Şuşa nəsli İveriyanın baqrationlara qədərki mədəniyyətinin yaradıcılarından biridir. İlk İveriya əlifbasını II Ər Şuşa tərtib etdirmişdir. Bu barədə “Albaniya tarixi”-nin müəllifi məlumat verir [Albaniya tarixi: 1993, s.33].

Kestene dur, kestene,
Kapi baqlamalari.
Heç xatrundan çıxmayur
Yarun ağlamalari.

არმუდი დერსუნ, ერსუნ,
ყაბუღუნი ნეჲლერსუნ.
ელ სალადუნ, გელმადუნ,
ნეჩუნ ჲალანი დერსუნ.

Armudi dersun, yersun,
Kabuğini neylersun?
El saladum, qelmadun,
Neçun yalani dersun?

ჩიხართუმ ა კუზლარი,
თავან ეთდის დუზლარი.
სელამ ვერდუმ, ალმალი
ა ბუ ქოჲუნ კიზლარი.

Çıxartum a kuzlari,
Tapan etdi düzlari.
Salam verdum, almadi.
A bu köyün kizlari.

ჩოხა გეჲარ უმუშდან,
დუგმელარი გუმიშდან,
ჩიხ და ბირ ბახ, კაჲნანა,
გუზელმიდურ ენიშდა.

Çuxa qeyar umuşdan,
Duqmelari qumişdan.
Çıx da bir bax, kaynana,
Quzelmidur enişda?

İudeya mənşəli baqrationlar 1117-ci ildə Tiflisi tutub yerli xalqlarla döyüşlərə başladılar. Şuşalıların bir hissəsi İslam dinini qəbul edib, Kür çayı boyunca Tiflis ilə Bərdə arasında yaşayırdı.

Lori dərəsində yaşayanlar isə xristian idilər. Onlar gürcülərlə vuruşa-vuruşa Batum şəhərinin 150 km şimal-qərbinə çəkildilər. Orada Şuşaeti qalasını saldılar [Марр: 1911, s.5].

Erməni və gürcü salnamələrinin ilkin mətnlərində Şuşa nəslinin patriarxları Ar Şuşa [Патканов: 1879, s.259; Albaniya tarixi: 1993, s.33; Шопен: 1866, s.215, 216], yəni Ər Şuşa adlandırılır. 30-cu illərdən sonra Aşuşa kimi yazmağa başladılar [Ломтатидзе: 1958, s.263; Бердзениливили: 1958, s.250; Корюн: 1962, s.108, 147].

Onlardan bir azca fərqli olaraq İ.İ.Şopen yazır ki, Şavşeti mahalının əvvəlki adı *Şuşaeti* olmuşdur [Шопен: 1866, s.216]. Akademik Marr Türkiyədəki şuşalıların dilini, mənşəyini öyrənmək üçün 1909-cu ildə Şuşaeti və Klarceti mahallarına elmi səfərə göndərildi.

1911-ci ildə Tiflis şəhərində “Дневник поездки Шавшетию и Кларджетию” kitabını nəşr etdirdi. Yazdı ki, Şavşeti qocaları nə zamansa əcdadlarının Gürcüstan-

dan köçüb gəldiklərini bilirlər. Ancaq gürcü dilini bilmirlər [Марр: 1911, s.5, 27]. N.Y.Marr onların şifahi xalq ədəbiyyatından nümunələr verir.

ქოროღლუმ ბუნი სოჲლასა,
ეშკ დერიასინი ბოჲლასა,
იგიდ მეჲდანდა ოლმასა,
ჲარასუზ გელსა, არ ოლურ.

* * *

Koroğlum bunu soylasa,
Eşq deriasini boylasa.
İqid meydanda olmasa,
Yarasuz qalsa, ar olur.

Bu əlifba gürcülərin dörd-beş əlifbasından biridir. Həmin əlifbanı İveriya hakimi II Ər Şuşa tərtib etdirmişdi. Bu barədə Musa Kaqankatuklunun "Albaniya tarixi"ndə məlumat verilir (История Агван 1861.s...; Albaniya tarixi 199...).

N.Y.Marr Türkiyədəki şuşalıların toy, nişan, elçilik mərasimlərindən seçmə şeirlər vermişdir. Onların da hamısı türk sözləridir.

ქესტენე დურ, ქესტენე,
ყაფვი ბალლამალარი.
ჭეჩ ხათრუნდან ჩიხმაჲურ
ჲარუნ ალლამალარი.

Gürcü alimləri 30-cu illərə qədər deyirdilər ki, "Koroğlu" dastanının gürcü dilində variantı vardır. Əslində isə dastanın gürcü variantı yoxdur, Şuşa variantı vardır. Şuşa variantı 4-5 gürcü əlifbasından biri ilə Şuşa dilində yazılmışdır. Orada bircə dənə erməni və gürcü sözü yoxdur.

ჩიხარ, ბახჩადა გეზარსენ,
დერთლი ბაღრიმი ეზარსენ,
ბაიაზ ქაღიდა ბენზარსენ,
ყელემ ტუთმაზ, იაზემ სენი.

Çıxar, baxçada qezarsən,
Dertli bağrimi ezarsən.
Bayaz kağıza benzarsən,
Kelem tutmaz, yazəm seni.

იუჯა ტაღლარენ ყარისინ,
ჰანგი ბახჩანენ ბარისინ,
ყარა გედანენ იარისინ,
ჩამლიბელდა სარსენ სენი.

Yuna tağlarən karisin?
Hanqi baxçanən barisin?
Kara qedanən yarisin?
Çamli belda sapsən seni.

Şuşalıların Kür çayı boyunca Tiflis ilə Bərdə şəhəri arasında məskunlaşan oymaqları XV əsrə qədər yarıköçəri həyat tərzi keçirir, Azərbaycan dilinin ayrıca bir ləhcəsində danışırdılar.

1471-ci iləd Misir Məmlük sultanının kiçik qardaşı Əmir Yaş bəy qoşun toplayıb Hələb şəhərini tutdu. Bu həmin Yaşbəydir ki, Nəsiminin dərisini soydurmuşdu. Suriyadan sonra Anadoluya hücuma hazırlaşırdı.

Zülqədər oğlu Şashsuvar bəy çapar göndərib yaxın və uzaq Türk bəylərindən kömək istədi. Bizim yardıma gedənlərin arasında öz atlı qoşunu ilə *Bozçalu bəy* ilə *Şuşa bəy* var idi [Faruk Sümər: 1993, s.230].

1717-ci ildə tərtib edilən bir vergi dəftərində göstərilir ki, Şeşalu tərəkəmə elatdır. Onların Qarayazı çölündə qışlağı vardır [Budaqov, Qeybullayev: 2002, s.14].

Şuşalıların bir kəndi də bizim Şuşa şəhərinin yaxınlığında idi. 1922-ci ildə tərtib edilən "Azərbaycanın yaşayış məskənlərinin siyahısı"ndə göstərilir ki, Şuşa qəzasında *Susalıx* adlı kənd vardır [Список населенных мест Азербайджана: 1922, s.318].

Şuşalıların bir tərəkəmə oymağı da VII əsrdə Qərbi Türk Xaqanlığının tərkibində idi. İakinf Biçurin Çin salnamələrinə istinadən yazır ki, *Şuşeli* Dulu tayfalarından biridir. Onlar 648-ci ildə Qərbi Türk Xaqanlığından ayrıldılar [Бигурин I: 1950, s.289].

Şuşa alpları haqqında ən dəyərli bilgilərdən biri Homerin "İliada" eposundadır. Homer yazır ki, Troyanı Assuriyanın himayəsi altında Su zalpları qoruyurdular. Onlar yunanlarla döyüşlərdə Pirama yardım edirdilər [Шопен: 1852, s.100]. Öncə yazdığım kimi əsərlərindəki Suz Şuşadır.



*Tunis yaxınlığındakı Suza liman şəhərinin qalıqları.*

Troyanın işğalı eradan öncə 10 illik mühasirədən sonra 1334-cü ildə olmuşdur [Шмидт: 1938, s.51, 59]. Şuşalıların bir hissəsi geri qayıtmamış, Aralıq dənizindən keçərək Tunis yaxınlığına, oradan İtaliyanın şimalına getmişdir.




*İtaliyanın şimalındakı Şuşa şəhəri. Sonralar onu Sequzia adlandırdılar.*

1851-ci ildə Peterburqda nəşr olunan "Qədim coğrafiya" kitabında yazılıb ki, Afrikanın şimal-qərbində Tunis yaxınlığında *Suza* adlı şəhər olmuşdur. Eyni zamanda şəhərin Aralıq dənizi sahilindəki liman da *Suza* adlanırdı [Краткая древняя география: 1851, s.153]. Arxeoloqlar Suza liman şəhərinin XIX əsrin əvvəllərində xarabalığını tapıblar.

Bu məlumatlar onu göstərir ki, Şuşalılar Troyanın süqutundan sonra atdan, düşüb dəniz xalqına çevrilmiş, Aralıq dənizində hərbi və ticarət donanmaları yaratmışlar.

Şuşalıların Aralıq dənizindəki ağalığı Troya dövründən Pun müharibəsinə qədər davam etdi. Şuşa alpları III Pun savaşında Romanın tərəfini saxladılar. Bu xidmətin müqabilində onlarla İtaliya vətəndaşlığı verildi. Şuşalılar İtaliyanın şimalına köçüb Toskana şəhəri ilə Ak Sona çayının arasında Şuşa şəhərini saldılar [Энеида: 1971, s.5; Чарлз Камерон: 1939, s.110].

*Nəticə.* Şuşa qədim dünyanın elitar nəsillərindən biridir. Onlar ilk Şuşa şəhərini Şumerin şərqində, sonralar Kuzistan və Xuzistan adlanan ölkədə salmışlar.

Şuşalılar Albaniya ilə İveriya arasında Şumerin qonşuluğundan köçüb gəlmişlər. Bu miqrasiya eradan öncə 579-cu ildən, əhəmənilər Elam dövlətinin varlığına son qoyanda başlamışdır.

İveriyanın ilk əlifbasını II Ər Şuşa tərtib etdirmişdir. İveriyadakı Şuşaeti şuşalıların ölkəsidir. Şuşa xalqının müsəlman icmaları Azərbaycanda qalmış, xrisyian icmaları İudeya mənşəli baqrationlarla vuruşa-vuruşa Türkiyəyə köçmüşdür.

Yaxşı olar ki, sonralar Şavşat adlanan Şuşa qalası tarixən olduğu kimi bərpa edilsin. Şavşat qalasının Şuşa adı özünə qaytarılsın.

Daha sonra Azərbaycan, Türkiyə, İtaliya tarixçilərinin elmi konfransları təşkil olunsun. İtaliyadakı Sequzia şəhərinin ilkin Şuşa adının bərpası gündəmə gətirilsin.

İtaliyanın Turan birliyinə dəvət edilməsini məsləhət bilirəm. Sonralar Nepol adlanan Bərdə şəhərini Suzianandan İtaliyaya köçən Bərdə xalqı salmışdır.

## ƏDƏBİYYAT


**1.** Рагозина З.А. История Ассирии. Санкт-Петербург, 1902.

**2.** Рагозина З.А. История Мидии. Санкт-Петербург, 1903.

**3.** Юсифов Ю.Б. Элам. Социально-экономическая история. Москва, Наука, 1968.

**4.** Клинописные тексты из Кюл тепе в собраниях СССР Н.Б.Янковской. Москва, Наука, 1968.

**5.** Оппенхейм А. Древняя Месопотамия. Москва, Наука, 1990.

**6.** Розалия Шор. Квопросу о Яфетицеско-турецком смешении. Доклады Академии Наук СССР, №3, 1931, с. 223-244.

**7.** Тураев Б.А. История древнего Востока. Санкт-Петербург, 1913.

**8.** Всеобщий географическо-статистический словарь. Санкт-Петербург, 1843.

**9.** Хинц В. Государство Элам. Москва, Наука, 1987.

**10.** Cahiz əbu-Osman əl-Bəsri. Türklərin fəzilətləri. Bakı, 2001.

**11.** Никита Эмин. Очерк религии языческих армян. Москва, 1864.

**12.** Мещанинов И.И. 7614

**13.** İslam Sadıq. Şumerdə izim var. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 2008.

**14.** Weissbach F.H. Nuu Buträge kur Kunde der susischen Inschriften Leipzig, 1890.

**15.** Марр Н.Я. Определение языка второй категории. Ахаменидских клинообразных надписей по данным Яфетического языкознания. Санкт-Петербург, 1914.

**16.** Играр Алиев. О вопросах древнейшей истории лидийских племен. Труды Института Истории и Филолософии. Т. V, Баку, 1954. S. 156-183.

**17.** Камменхубер А. Хаттский язык. Древние языки Малой Азии. Москва, 1980.

**18.** Дьяконов И.М. Первобытнообщинный строй на территории Мидии. Труды Института Истории и философии. Москва, 1954.

**19.** Хоренский Б.А. Эламский календар у XV-XIV сталетиях до н.э. Схидный свит, №2, Киев, 2010, с. 132-146.

**20.** Иванов В.В. Анатолийские языки. Древние языки мплой Азии. Москва, Прогресс. 1980. s. 129-160.

**21.** Weissbach F.H. Die Keilinschriften der Achämeniden. Leipzig, 1911.

**22.** Историография истории Древнего Востока. Санкт-Петербург, 2002.

**23.** Егише. О Вардане и войне армянской. Ереван. 1971.

**24.** Musa Kaqankatuklu. Albaniya tarixi. Bakı, Elm. 1993.

**25.** Бердзенишвили Н.А., Дондуа В.Д. Грузия III-V вв. Очерки истории СССР III-IX вв. Москва, 1958.

**26.** Марр Н.Я. Дневник поездки Шавшетию и Кларджетую, Тифлис. 1911.

**27.** Патканов К.П. О минимом походе Тиклат Паласара к берегам Инда. Санкт-Петербург, 1879.

**28.** Ломтатидзе Г.А. Культура и быть Грузии в IV-VII вв. Москва, 1958.

**29.** Корюн. Житие Маштаца, Ереван, Айпетрат, 1962.

**30.** Шопен И.И. Кавказ и его древние обитатели. Санкт-Петербург, 1866.

**31.** Faruk Sümər. Oğuzlar. Bakı, Yazıçı, 1992.

**32.** Budaqov B.Ə., Qeybullayev Q.Ə. Gürcüstanda türk mənşəli toponimlərin lüğəti. Bakı, 2002.

**33.** Список населенных мест Азербайджана. Баку, 1922.

**34.** Бичурин (Иакинф) Н.Я.Собрание сведений о народах обитавших в Средней Азии в древние времена, т. 1, Москва Ленинград, 1950.

**35.** Шопен И.И. Исторический памятник состояния Армянской области к эпоху ея соединения к Российской Империи. Санкт-Петербург, 1852.

**36.** Шмидт Р.В. Античные предание о Дорийском переселение. Вестник Древней Истории. №2 (3), Москва, 1938, с. 50-65.

**37.** Краткая древняя география. Санкт-Петербург, 1851.

**38.** Вергилий Пубмий Марон. Энеида. Теорчики. Москва, 1971.

**39.** Чарлз Камерон. Темпы Римлян. Москва, изд-во Академии Наук СССР, 1939.

**Ilhami JAFARSOY**

**THE CITY SHUSHA IN TURKEY**

**SUMMARY**

Shusha is not only the name of a city in Azerbaijan. It is also the name of one of the elite dynasties of ancient Western Asia.

The first city Shusha was established in Elam, in the southeast of the Zagros Mountains. That city was called Susa, Suza in ancient sources. Suz is the name of the city Suziana in the Greek texts.

The oracles of the temple Shusha had the title in-Shushinak. Shusha was the sixth biggest city of Elam in the 18th century BC. It got bigger after it became a capital. The population of the city was 45 thousand in BC. It meant being a metropolis for that time.

In the 6th century BC, the Acaemenids destroyed the state Elam. A part of the population move to the mountains. They established the state Khazinadars in the fortresses they took shelter. That state had been remained until the arrival of Alexander of Macedon.

The most warlike generations moved to the foot of the Caucasus Mountains. They built the cities Shusha and Barda between Albania and Iberia. Evliya Chelebi ($17^{th}$ century) had seen the ruins of those cities.

The patriarchs of the Shusha dynasty had the title Er Shusha. Er Shusha I ruled the Iberian people in the $3^{rd}$ century AD and Er Shusha II in the $5^{th}$ century.

Er Shusha II became Christian. He summoned Mesrop Mashtots and ordered him to create The Shusha alphabet. The Georgians claimed that the alphabet mentioned above was the first Georgian alphabet. In fact, it was the Shusha alphabet. At that time, the Bagrations from the Judean origin who were the ancestors of the modern Georgians had not come to Caucasus yet.

The generations of Shusha kept fighting against the Bagrations and they moved to the north-west of the city Batum in 1117. They built the fortress Shushaeti, i.e. the land of Shusha and took shelter there.

In the beginning of the $20^{th}$ century, academician Marr went on the scientific trip to the region called Shavshat today. According to his writings, the old people of Shavshat remembered that they had moved here from Georgia. However, they could not speak Georgian. They spoke in a language similar to the Turkic languages.

I suggest restoring the name Shusha, the historical name of the city Shavshat. I suggest that the cities Shusha in Azerbaijan, Turkey and Italy became sister cities. If this idea was realised, the Turan union would extend its territory, become much stronger and invincible.

**Keywords:** *Shusha, Suziana, Bagrations, the state Elam, Iberia*

**Ильхами ДЖАФАРСОЙ**

**ГОРОД ШУША В ТУРЦИИ**

**РЕЗЮМЕ**

Шуша – это не просто название города в Азербайджане. Это имя одного из элитных поколений древней Средней Азии.

Первый город Шуша был построен в Эламе, к юго-востоку от гор Загрос. Город называется Суса, Суза в древних источниках. Имена Суз и Сузиана - это названия города в греческих текстах.

Жрецы Шушинского храма носили титул ин-Шушинак. Шуша был шестым по величине городом Элама в XVIII веке до нашей эры и вырос после того, как стал столицей. До эпохи население города составляло 45 000 человек. В то время это был мегаполис.

В VI веке до нашей эры Ахемениды положили конец Эламскому государству. Часть населения отступила в горы. Они учредили штат казначеев в замках, где укрылись. Это состояние продолжалось до прихода Александра Македонского.

Самые воинственные поколения перебрались в предгорья Кавказских гор. Они построили города Шуша и Барда между Албанией и Иверией. Эвлия Чалаби (XVII век) видел руины этих городов.

Патриархи Шушинской династии носили титул Эр Шуша. I Эр Шуша правил в 3 веке нашей эры, а II Эр Шуша правил иверским народом в 5 веке.

II Эр Шуша стал христианином. Месроп призвал Маштоса и составил Шушинский алфавит. Грузины утверждали, что этот алфавит был первым грузинским алфавитом. По сути, это шушинский алфавит. В то время на Кавказ еще не прибыл Иудейский Багратион, предок сегодняшних грузин.

Шушинцы двинулись на северо-запад от Батуми в 1117 году, сражаясь с Багратионом. Там они построили крепость Шушаети, то есть земли Шуши, и укрылись там.

Академик Марр побывал с научной поездкой в районе, ныне называемом Шавшат, в начале XX века. Он написал, что старейшины Шавшети помнят, когда они переехали из Грузии. Но грузинского не знают. Они говорят на языке, похожем на турецкий.

Предлагаю восстановить историческое название города Шавшат на Шуша. Города Шуша Азербайджана, Турции и Италии следует назвать городами-побратимами. Если эта идея воплотится в жизнь, тогда Союз Туран расширит свою географию, станет сильнее и непобедимее.

**Ключевые слова:** *Шуша, Сузиана, Багратионы, Эламское государство, Иверия.*